

Məhsəti MUSA

**İŞIQLI ADAM**

Keçdi ömrümün ikinci fəsli də,
Daha yağışlar döyəcləyir yanaqlarımı.
Günəş qürub edir ucalığımdan,
Ulduzlar tökülür eşq ağacımdan...

Daha 4 yaşlı qızım məni aldada,
7 yaşlı oğlum ağlada bilir...

Silkələyirəm xatirələri,
Kədər tökülür hər küncündən...
Atamın sınmış vüqarını,
Anamın əyilmiş belini
Düzəldə bilməmişəm bu günəcən...

Başımı üstünə qoyub
Dizlərimə sarılıram...
Yavaşıyır ürək döyüntülərim,
Qaranlıq çökür gözlərimə,
Tunellərin sonundakı
İşıqlar da ölüb...
Boğuluram...

Qəfildən
bir dost səsi diksindirir məni:
“Sənə nə olub,işıqlı adam?”

**BİR AZ DA ÇOX SEVİM SƏNİ**

Elə şirin ağrısan sən,
İstəmirəm ki, bitəsən.
Qapayaram gözlərimi,
Gəlib dilimdə bitərsən.

Dua kimi pıçıldaram
Adını hər səhər-axşam.
Sən mənim zəif damarım,
Sən sarıdan bir az boşam.

Aldanma sərt duruşuma,
Yaşayıram veyil-veyil.
Bu yazını mən yazmadım,
Pozmaq da əlimdə deyil.

Həsrətin də məlhəm mənə,
Dərdi şirin eyləyənim.
Məni haqqa çatdıranım,
Məni dərviş eyləyənim.

Bu səfərin mənzili yox,
Yollar uzun,yollar yeni...
Qoy bir az da uzaqlaşım,
Bir az da çox sevim səni.



## O ÇİÇƏYİN XATİRİNƏ GEÇİK BİR AZ

Yuxuların
ən şirin yerində çalar
zəngli saatlar.
Doğmaların dəyərini anlayanda
başlayar ayrılıqlar.
Yayın son nəfəsinə aldanan
tumurcuq çiçəyin
arzusunu gözündə boğar
qaşqabaqlı payız...

Sus, zəngli saat!
Yuxularda xoşbəxt olaq heç olmasa.
Durun, ayrılıqlar!
Sinəmizdəki boşluqlar
onsuz da çox dərindir...
Gecik, payız!
O çiçəyin xatirinə –
gecik bir az!

Sizi and verirəm
dan yerinin (utancaq) qızartısına,
sizi and verirəm
qağayıların təlaşlı çığırtısına,

xəyallarımızı hürkütməyin,
sevdiklərimizi öldürməyin,
çiçəkləri soldurmayın!

Sevgisizlikdən gileylənib,
köks ötürən Dost,
əlini ver mənə.
Sən də...
Bax, sən də...
eeey, sən də!
Qoşulun bizə –
böyüyək, böyüyək!..
Sevgidən halqa yaradıb
qucaqlayaq Yer kürəsini!

Utansın zəngli saatlar,
utansın ayrılıqlar,
utansın payız...

XOŞBƏXTLİK sözünü
dünyanın alnına yazsın
kəpənək qanadlı bir qız!

## PƏNCƏRƏLƏR AĞ PƏRDƏ YELLƏYƏNƏDƏK

Mən pəncərəyə
ağ pərdə tutdum,
geri qaytardım işığını...

Bilirsən,
zülmətdə boğulanlar var,
Sənin bir zərrənə möhtac...
Mən o qədər də nursuz deyiləm,
onlarsa işığa ac...

Get!
Açıq qalmış pəncərələrdən
şüan hopsun ürəklərə
Günəş ol,
evlərə dol...
Pəncərələr
ağ pərdə yelləyənədək.

**ÜÇÜNCÜ SƏS**

Sıfırlayıram bütün sevgilərimi...
Yenidən başlayıram
yeni səhifədən,
yeni adlardan –
Yeni dünya yaradacağam!
Çeşidləyəcəyəm
Cənnətlik və cəhənnəmlik olanları...

Mənim qır qazanım yoxdu,
Amma baxışlarımdan əriyəcək
“Cəhənnəm”ə düşənlər...

Sıfırlayıram bütün sevgilərimi...
Mən Allah qədər səbirli deyiləm!
Bütün sınaqlarımı keçirmişəm,
bütün Eşqimi əritmişəm,
daha artığına dözəcəyim yox...
Sıfırdan quracağam dünyamı –
öz dünyamı...

Qiyamət qopacaq...
Üçüncü səsi gözləyirəm!

**NƏSƏ BELƏ OLMAMALIYDI**
(Saqif Zeynalın eyni adlı şeirinə)

Biz yağışlarla yuyunmuşduq,
Günəş daramışdı saçlarımızı,
Göy qurşağı idi xəyallarımız...

Biz Ay işığına bələnib
Yağışın təmizlədiyi yollarla
Qaranlıqları qovacaqdıq...

Amma bilməzdik ki,
Yağış həm də palçıq yaradırmış.
Buludların arxasında
İtib-bata bilirmiş Ay...
Ümidin ucuna həsrət
İşıqsızlığı varmış dünyanın.
Saxlaya bilməmək varmış gedəni,
Canından qopduğun qadın belə
Anlaya bilməzmiş səni...

Arzular bu qədər tez
Açıb solmamalıydı, dostum,
Nəsə,
Nəsə belə olmamalıydı, dostum!

Millətlərə bölünməməliydi varlığımız,
Dünyaya hakim olmamalıydı
Bizim gözüdarlığımız...
Allah içimizdən qaçıb
“Göylərdə” durmamalıydı,
Öz “ucalıq” taxtını
Körpələrin
Cəsədləri üzərində qurmamalıydı.
Dostum, nəsə belə olmamalıydı!

Ümid-ümid sökülməməliydik,
Eşqin o üzündə gizlənən
Boşluqlara tökülməməliydik.
Yıxılmamalıydıq özümüzdən,
Asılmamalıydıq sözümüzdən,
Gedişimizi istəyənlərin
Gəlişini gözləməməliydik.
Gözlərimiz yollarda qalmamalıydı, dostum!
Nəsə belə olmamalıydı, dostum!

